**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON MƏHKƏMƏSİNƏ**

**İddiaçı** Soyadı, adı, atasının adı
**Ünvan:** (faktiki yaşadığı ünvan və qeydiyyatda olduğu ünvan qeyd edilməlidir)
Yazışma ünvanı: ________________________
Telefon________________________________
Email ünvan:___________________________
(MPM-in 149-cu mad.əsasən)

**Cavabdeh:** Soyadı, adı, atasının adı
**Ünvan:** (faktiki yaşadığı ünvan və qeydiyyatda olduğu ünvan qeyd edilməlidir)
Telefon______________________________
Email ünvan:__________________________
İşlədiyi yerin ünvanı: ___________________
Şəxsiyyət vəsiqəsi: _______________(əlavə informasiya kimi əgər varsa MPM -nin 149-cu maddəsində göstərilən məlumatlar)

# İ D D İ A   Ə R İ Z Ə S İ

*(birgə əmlakın bölünməsinə dair)*

Cavabdehlə mən _______-ci ildə rəsmi nikaha daxil olub evlənmişik. Birgə nikahdan uşaqlarımız olmamışdır. _________ rayon məhkəməsinin ________-cu il tarixli qətnaməsi ilə aramızda olan nikah pozulmuşdur. (_____ rayon Qeydiyyat Şöbəsinin verdiyi __________-cu il tarixli nikahın pozulması haqqında şəhadətnaməyə əsasən aramızda olan nikahın ləğv edilməsi ________tarixdə __ № ilə nikahın ləğv edilməsi haqqında akt qeydləri kitabında qeyd edilmişdir.)

____-cü ildə birgə yaşadığımız dövrdə mən ___________ rayonu ___________ saylı mənzilini əldə etmişik. Həmin mənzil 2 otaqlıya düzəldilmiş, lakin sənəddə bir otaqdan ibarətdir. Həmin evin əşyalarını - televizor, televizor altı, 3 xalça, soyuducu, mətbəx mebeli, yataq mebeli, stol, 6 stullar və digər əşyalar da birgə yaşadığımız dövrdə mən almışam. Lakin aldığım evi cavabdehin adına rəsmiləşdirmişəm. Uşağımızın olmaması səbəbindən biz _______-ci ildən faktiki ayrılmışıq. Mən digər qadınla ailə qurmuşam və iki övladım var. Mənim birgə nikah dövründə əldə etdiyim mənzildən başqa yaşayış yerim yoxdur. Buna görə də həmin evin birgə əmlak kimi aramızda bölünməsini ədalətli hesab edirəm. Daşınar əmlakın cavabdehdə qalmasına etiraz etmirəm.

Azərbaycan Respublikası (bundan sonra - AR) Ailə Məcəlləsinin 36.1-ci maddəsinə əsasən ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra, habelə kreditor ödəməni ər-arvadın ümumi əmlakında olan onlardan birinin payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verdikdə həyata keçirilir. AR Ailə Məcəlləsinin 36.2-ci maddəsinə əsasən ər-arvadın ümumi əmlakı onların sazişi əsasında bölünə bilər. Belə saziş ər-arvadın arzusu ilə notariat qaydasında təsdiq edilə bilər. Həmin məcəllənin 36.3-cü maddəsinə əsasən mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında

həyata keçirilir. Habelə, AR Ailə Məcələsinin 36.4-cü maddəsinə əsasən Məhkəmə ər-arvadın ümumi əmlakını bölərkən onların tələbi ilə hər birinə çatacaq əmlakı müəyyən edir. Ər-arvaddan birinə, dəyəri ona çatası payın dəyərini aşan əmlak verildikdə, bunun əvəzində digərinə müvafiq məbləğdə pul və ya başqa kompensasiya verilə bilər.

Yuxarıda qeyd edilənlərə əsasən, AR Mülki Prosessual Məcəlləsinin 149-cu və 150-ci maddələrini rəhbər tutub məhkəmədən

**Xahiş edirəm:**

Cavabdehlə birgə nikah dövründə əldə etdiyimiz əmlakın ________ rayonu _________________ saylı mənzilinin aramızda bölünməsinə, mənzilin ikidə bir hissəsinə mənim mülkiyyət hüququmun tanınmasına dair qətnamə çıxarasınız.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 157.1-ci maddəsinə əsasən cavabdehin həmin evi özgəninkiləşdirmək istəyi olduğunu nəzərə alaraq, mübahisəli evə iddianın təmin tədbiri kimi mübahisə başa çatana kimi həbs qoymanızı xahiş edirəm.

Evin sənədinin cavabdehdə olmasını nəzərə alaraq, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinə sorğu göndərmənizi xahiş edirəm.

Qoşma: İddia ərizəsinin surəti – 2 vərəqdə
Dövlət rüsumunun ödənilməsinə dair qəbz
Şəxsiyyət vəsiqəsinin surəti
Boşanma haqda şəhadətnamənin surəti
________rayon məhkəməsinin ____________-cu il tarixli
qətnaməsinin surəti: 2 vərəqdə

**İddiaçı:** __________________________*oğlu/qızı*

“___” ______20__-ci il